# KÜRDƏMİR TƏCRÜBƏ SINAQ STANSİYASI



**Ünvan: AZ 3300, Kürdəmir rayonu, Gorus-Əyribənd kəndi**
**Direktor: Məmmədov Saday Fərhad oğlu**
**Mobil: (+99450) 731-59-77**
**E-mail: *sadaymamedov54@mail.ru***





Kürdəmir Təcrübə Sınaq Stansiyası Azərbaycan SSR Nazirlər Sovetinin 11 fevral 1977-ci il 30 nömrəli Qərarı ilə Azərbaycan ET Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutunun struktur tabeliyində yaradılmışdır. Hal-hazırda Aran Şirvan bölgəsində yerləşən Kürdəmir TSS Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2015-ci il 109 nömrəli Qərarı ilə Əkinçilik ET İnstitutunun struktur tabeliyndə fəaliyyət göstərir.

Kürdəmir TSS-nin təşkilati strukturunda yem bitkilərinin becərilmə texnologiyası və toxumçuluğu şöbəsi fəaliyyət göstərir. Burada 7 nəfər çalışır, onlardan 2 nəfəri elmi işçidir. Kürdəmir TSS-na təhkim olunmuş ümumi torpaq sahəsi 150 hektardır, ondan 149 hektarı k/t-na və əkinə yaralıdır. İl ərzində stansiya KTN-nin bölgüsü əsasında respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən dövlət və özəl toxumçuluq təsərrüfatlarını 60-70 tondan artıq dənli və yem bitkilərinin yüksək reproduksiyalı toxumları ilə təchiz edir. Büdcədən maliyyələşən və qismən təsərrüfat hesablı dövlət müəssisəsidir.

**Fəaliyyət istiqamətləri:**

- Əkinçilik ET İnstitutu tərəfindən verilmiş sifariş əsasında elmi-tədqiqat işlərinin yerinə yetirilməsində bilavasitə iştirak etməklə, icrasının təmin edilməsi;
- Yem bitkilərinin yerli və dünya genofondunun toplanması, öyrənilməsi və seleksiyada istifadəsi;





- Rayonlaşmış yonca sortlarının ilkin toxumçuluğunun təşkili, yüksək kondisiyalı orijinal, super elit və elit toxumlarının istehsalı;
- Rayonlaşmış yumşaq buğda və arpa sortlarının elit toxumlarının istehsalı;
- Aran Şirvanın suvarma əkinçiliyində müxtəlif rotasiyalı növbəli əkin sistemlərinin, yeni taxıl və yem bitki sortlarının məhsuldarlığını və keyfiyyətini təmin edən becərilmə texnologiyalarının işlənib hazırlanması və tətbiqi.